Azad Azərbaycan

23 fevral 2021-ci il №13 (3668)

TARİXİMİZ

# Müqəddəslik zirvəsinin parlaq ulduzu: İsgəndər Dövlətli

**Vətən müharibəsində xalqımızın 44 gündə qazandığı şanlı zəfər indi tərəqqipərvər bəşəriyyət tərəfindən haqqın-ədalətin təntənəsi kimi qəbul edilir. 30 ildən sonra Qarabağı azad görmək isə hər bir azərbaycanlı üçün böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi öz xalqına bəxş etməkdə İsgəndər Vüqar oğlu Dövlətli də erməni dığalara qarşı döyüşdə əsl fədakarlıq, qəhrəmanlıq göstərib.**

İsgəndər 1992-ci ildə dağlar diyarı Lerik rayonunun Soru kəndində anadan olmuşdu. Uşaqlıq illəri qartallı qayalar qoynunda keçsə də, 1997-ci ildə ailə Bakı şəhərinə köçür. İsfəndiyar orta məktəbi başa vurub Rabitə və Nəqliyyat kollecinə daxil olur. Kolleci bitirdikdən sonra o, Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılır. Daxili Qoşunların Quba şəhərinin "N" saylı hərbi hissəsində müqəddəs əsgəri borcunu layiqincə yerinə yetirib evinə qayıdır. Qaldı ki, Qarabağın düşmən tərəfindən zəbtini heç cür qeyrətinə sığışdıra bilmir. Vətən torpağını qorumaq, vaxtı gələndə mübarizliklə dığalara qalib gəlmək məqsədilə 2016-cı ildə hərbiyə qayıdır və kəşfiyyatçı gizir rütbəsində xidmətini davam edir.

27 sentyabr 2020-ci il tarixində başlayan İkinci Qarabağ müharibəsində fəal iştirak edərək vətəninə, el-obasına sevgisini bir daha göstərir. Döyüşdən-döyüşə erməni dığalarına sarsıdıcı zərbələr endirərək onların xeyli sayda canlı qüvvəsini o dünyaya göndərir. Çox yerdə Ordumuzun uğurla irəliləməsi, strateji nöqtələri ələ keçirməkdə var qüvvəsini əsirgəmir. Kəşfiyyatçı gizir oktyabrın 8-də Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçməklə qəhrəmancasına şəhidlik məqamına yüksəlir. Beləcə bir igid də adını Vətən tarixinin şanlı səhifəsinə yazır. Şəhid oktyabrın 30-da yaşadığı Binəqədi rayonu Sulutəpə qəsəbəsində canından çox sevdiyi Vətən torpağına tapşırılır. Bir ay keçməmiş oğlunun yoxluğuna dözə bilməyən Vüqar kişi də erməni vandalizmin qurbanı olur.



**İgid əsgər İsgəndərdən xalqına qalan bir əmanəti isə iki yaşlı uşağıdır. Doğrudur, o, hələ həyatı dərk etmir. Fəqət damarlarında igid qanı axdığı üçün gələcəkdə o, xalqına, vətəninə ən ləyaqətli övlad olar. Və gizir İsgəndərin dövlət tərəfindən aldığı "Vətən uğrunda", "Füzulinin azad olmasına görə" medallarını hər dəfə ata yadigarı tək döşünə taxanda qəlbində vətən sevgisi birə-on artar. Dərk edər ki, igidsiz Vətən, torpaq, xalq yoxdur. Belə ata ilə yalnız fəxr edər...**

**Zəfər ORUCOĞLU**